*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 17 dekabr 2014-cü il | № 96 (1913) | Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Malta Respublikasının Baş naziri Cosef Muskatın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dövlətimizin başçısı Azərbaycan ilə Malta arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Əməkdaşlığımızın genişlənməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev Malta Respublikasının Baş naziri Cosef Muskatın ölkəmizə səfərinin ikitərəfli əlaqələrin perspektivlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkan yaratdığını dedi.***

***Ölkəsinin Azərbaycan ilə münasibətlərin inkişafına böyük önəm verdiyini deyən Maltanın Baş naziri Cosef Muskat səfəri zamanı əlaqələrimizin həm ikitərəfli, həm də Avropa İttifaqı çərçivəsində inkişaf perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu qeyd etdi.***

***Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Dekabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad rayonuna səfər edib.***

***Dövlətimizin başçısı rayonda bir sıra infrastruktur və sosial təyinatlı obyektlərin açılışında iştirak edib.***

***Prezident İlham Əliyev əvvəlcə Sabirabad şəhərinin mərkəzi meydanında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.***

***Rayon icra hakimiyyətinin başçısı Nazim İsmayılov dövlətimizin başçısına meydanda aparılan abadlıq işləri barədə məlumat verib.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Polşa Respublikası Baş nazirinin müavini, iqtisadiyyat naziri, Azərbaycan-Polşa iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Polşa tərəfindən həmsədri Yanuş Pexoçinskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Azərbaycan ilə Polşa arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin ticarət dövriyyəsinin artdığını da məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı ölkələrimizin iqtisadi, sərmayə qoyuluşu və digər sahələrdə əməkdaşlığının genişləndirilməsi üçün də böyük potensialın olduğunu dedi. Prezident İlham Əliyev ikitərəfli əlaqələrimizin inkişafının regional əməkdaşlıq baxımından önəmini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasının uğurlu olacağına əminliyini bildirdi.***

**AzərTAc-ın materialları əsasında**

# “Tibbi təminat ordunun döyüş qabiliyyətinin möhkəmlənməsində mühüm amillərdən biridir”

## Müdafiə naziri Silahlı Qüvvələrin tibb xidmətinin rəhbər heyəti ilə görüşüb

*“Bu hospitalın tikintisi özlüyündə bir göstəricidir. Mən bir neçə il bundan əvvəl hospitalın birinci korpusunun açılışında iştirak etmişdim. O vaxt da çox böyük işlər görülmüşdü. Bu bina və burada quraşdırılmış avadanlıq, əlbəttə ki, dünya səviyyəsindədir. Dünyanın aparıcı klinikalarında olan şərait və texniki təchizat burada vardır”.*

**İlham ƏLİYEV**



***Dekabrın 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin hərbi tibb xidmətinin rəhbər heyətinin ilin yekunlarına həsr olunmuş toplantısında iştirak edib. Öncə Müdafiə naziri və Tibb Baş İdarəsinin rəhbərliyi xalqımızın ümummilli lideri, müasir ordumuzun yaradıcısı Heydər Əliyevin Baş Klinik Hospitalın həyatında ucaldılmış abidəsinin önünə tər çiçək dəstələri düzərək onun xatirəsini ehtiramla yad edib.***

Sonra general-polkovnik Zakir Həsənov orduda tibb xidmətinə cavabdeh zabitlərin toplantısında iştirak edib və tədbir iştirakçılarını salamlayıb.

Geniş məruzə ilə çıxış edən Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev cari il ərzində ordunun tibbi hissə və müəssisələrində, əlahiddə tibb məntəqələrində müayinə və müalicə işinin təkmilləşdirilməsi istiqamətində görülmüş işlərdən danışıb. Məruzəçi bildirib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ordu quruculuğuna göstərilən diqqət və qayğının nəticəsi olaraq hərbi səhiyyənin maddi-texniki bazası daha da möhkəmlənib.

- Ordu rəhbərliyinin son vaxtlar həyata keçirdiyi mühüm islahatlar nəticəsində şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması və hərbi təminatın yüksəldilməsi əvvəlki illərlə müqayisədə hərbi qulluqçular arasında ümumi xəstələnmə hallarının kəskin azalmasına səbəb olub, - deyə Tibb Baş İdarəsinin rəisi göstərilən diqqət və qayğıya görə toplantı iştirakçıları adından Müdafiə nazirinə öz minnətdarlığını bildirib.

General-mayor Natiq Əliyev qeyd edib ki, xəstələnmə hallarına görə ordu sıralarından tərxis olunanların sayı ötən illərlə müqayisədə 30 faiz azalıb. Həmçinin bağırsaq infeksiyası halları 4 dəfə, vərəmə yoluxma 2 dəfə və soyuqdəymə xəstəlikləri 20 faiz aşağı düşüb. O, birmənalı olaraq bildirib ki, xəstəlik hallarının kəskin azalmasına əsas səbəb şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması və əsgərlərin keyfiyyətli qida təminatı üçün ordu rəhbərliyinin həyata keçirdiyi önəmli tədbirlərdir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov toplantıda çıxış edərək Silahlı Qüvvələrin döyüş qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində aparılan irimiqyaslı quruculuq işlərinin ölkə rəhbərliyinin, şəxsən Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət mərkəzində olduğunu xüsusilə vurğulayıb. O qeyd edib ki, hazırda müxtəlif bölgələrdə müasir əsgər yataqxanaları, hamam və camaşırxanalar tikilir, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün vacib tədbirlər görülür.

**(Ardı 2-ci səhifədə)**

## Politoloq Quram Merxuliya:
## Dağlıq Qarabağ Azərbaycanın əzəli torpaqlarıdır...

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Bu barədə kifayət qədər tarixi faktlar var. Bunu heç bir vicdanlı alim dana bilməz. Yalnız erməni alimləri qondarma, saxta faktlar düzəltməklə işğalçılıq siyasətlərinə don geyindirmək istəyir, bu məsələdə də xarici havadarlarının köməyindən istifadə edirlər. Amma onlar buna nail ola bilməyəcəklər. Azərbaycan bu bölgənin ən qədim dövlətlərindən biridir və hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilər də Azərbaycanındır. Bu da tarixi faktdır.

Bu sözləri AzərTAc-a müsahibəsində tanınmış gürcü politoloqu, tarixçi alim Quram Merxuliya söyləyib.

Alim deyib: "Hamıya məlumdur ki, Ermənistan dövləti 1918-ci ildə Azərbaycan və Gürcüstan ərazilərində xarici dövlətlərin dəstəyi və təzyiqi ilə yaradılıb. Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi Dağlıq Qarabağ mövcud olanda, heç Ermənistanın adı belə olmayıb. Ermənilər bu faktları ört-basdır etməklə diqqəti yayındırmağa çalışırlar. Amma hesab edirəm ki, onlar buna nail ola bilməyəcəklər".

Politoloq bildirib ki, əslində Azərbaycan torpaqlarını Ermənistan təkbaşına işğal edə bilməzdi. Yalnız xarici havadarlarının fitvası və dəstəyi ilə onlar Azərbaycanın əzəli torpaqlarını işğal ediblər. Sovet İttifaqı dağıldıqdan sonra Ermənistanda yenidən ərazi iddiaları baş qaldırdı. Ermənistana bu məsələdə xarici qüvvələr dəstək verdi. Quram Merxuliya deyib: "Bu gün xarici dövlətlərin əlində təzyiq vasitəsinə çevrilən Ermənistan əslində özünü pis vəziyyətdə qoyub. Baxın, bu bölgədə Azərbaycan da, Gürcüstan da işğaldan əziyyət çəkən ölkələrdir. Bununla belə, hər iki ölkə inkişaf edir. Birgə regional və qlobal layihələrdə iştirak edirlər. Bizimlə müqayisədə Azərbaycan daha çox inkişaf edib. Ermənistan dövləti isə özünü hər şeydən məhrum edib. Düşünürəm ki, bu da uzun sürməyəcək. Tezliklə Ermənistan geri çəkiləcək və işğal etdiyi torpaqları azad edəcək. Onlar uduzduqlarını nə qədər tez başa düşsələr, bir o qədər də onlara xeyirdir. Bölgədə işğala mütləq son qoyulacaq. Bu gün uzaqda deyil".

## İtaliya ictimaiyyəti Dağlıq Qarabağ münaqişəsi barədə məlumatlandırılıb

Ölkəmizin İtaliyadakı səfirliyinin təşkilatçılığı ilə Romadakı La Sapienza Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan üzrə Araşdırmalar və Tədqiqatlar Mərkəzində "Dağlıq Qarabağ münaqişəsi" mövzusunda konfrans keçirilib.

Azərbaycan və Qafqaz üzrə Gənc İtalyan Tədqiqatçılar Assosiasiyasının prezidenti Daniel Pommier, İtaliyanın Trentino-Alto Adige muxtar vilayətinin paytaxtı Trento şəhərindəki Azərbaycan Tədqiqatları Mərkəzinin rəhbəri Fernando Orlandi və başqaları müvafiq mövzu ilə bağlı məruzələrlə çıxış ediblər.

Geniş müzakirələrin aparıldığı tədbirdə münaqişənin tarixi, səbəbləri, onun həlli istiqamətində atılan addımlar, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində tənzimlənməsi məsələləri təhlil olunub. Diqqətə çatdırılıb ki, münaqişəyə dair həqiqətləri İtaliya ictimaiyyətinə çatdırmaq baxımdan bu cür tədbirlərin keçirilməsi vacibdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**AzərTAc**

# "Tibbi təminat ordunun döyüş qabiliyyətinin möhkəmlənməsində mühüm amillərdən biridir"





(Əvvəli 1-ci səhifədə)

- Hərbi səhiyyəmizin inkişafında qazanılan əhəmiyyətli uğurlar, nümunəvi tibbi xidmətin təşkili məqsədilə həyata keçirilən islahatlar və hərbi tibb müəssisələrinin maddi-texniki təminatının gücləndirilməsi bu sahəyə göstərilən yüksək dövlət qayğısının bariz nümunəsidir, - deyə nazir öz çıxışında qeyd edib. - Burada idarə rəisinin məruzəsi dinlənildi, ötən ildə hərbi təbabətdə qazanılan əhəmiyyətli uğurlar vurğulandı. Bütün bu deyilənlər məni hədsiz sevindirir, hazırda ölkəmizin səhiyyə sistemində önəmli yerlərdən birini hərbi təbabət təşkil edir. Artıq ən mürəkkəb ürək əməliyyatları hərbi hospitalımızda uğurla həyata keçirilir. Mən qürur hissi duyuram ki, hərbi həkimlərimizin sorağı inkişaf etmiş ölkələrdə eşidilir. Bu şöhrət dövlətimizə, xalqımıza və Silahlı Qüvvələrimizə başucalığıdır.

"Hesab edirəm ki, hərbi səhiyyənin peşəkarlıq səviyyəsinin yüksəlməsində önəm kəsb edən əsas amillərdən biri də gənc kadrların hazırlığıdır. Bu məqsədlə ali təhsillərini başa vuraraq hərbi xidmətə başlayan yeni tibb zabitlərinin gələcəyin peşəkar həkimləri kimi formalaşdırılmasına diqqət yetirilməlidir. Yaxşı olardı ki, bu sahədə inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübələrindən geniş istifadə edilsin".



Müdafiə naziri çıxışına davam edərək növbəti 2015-ci il üçün qarşıda dayanan vəzifələrdən danışıb və bildirib ki, bu gün dövlət rəhbərliyinin əsas məqsədi Silahlı Qüvvələrin döyüş qabiliyyətinin daha da gücləndirilməsi və mühüm bir vəzifənin - torpaqlarımızın işğaldan azad edilməsi vəzifəsinin yerinə yetirilməsidir. Bu sahədə tibb xidməti kontigentinin üzərinə düşən məsuliyyəti diqqətə çatdıran nazirə görə, hər bir tibb zabiti qulluq etdiyi hərbi bölmənin döyüş qabiliyyətinin möhkəmlənməsinə öz töhfəsini verməlidir.

- Müharibə hələ bitməyib, - nazir deyib. - Bizim qarşımızda torpaqlarımızın düşmən işğalından azad edilməsi kimi taleyüklü vəzifə dayanır. Dövlətimizin başçısı da dəfələrlə bəyan edib ki, Azərbaycan öz qanuni ərazilərini son qarışına kimi azad edəcəkdir. "Biz öz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına heç zaman imkan verməyəcəyik". Bu sözlər Azərbaycanın qətiyyətli mövqeyini nümayiş etdirir və bu vəzifəni yerinə yetirməyə hazır olan Silahlı Qüvvələrimizin şəxsi heyəti hər an hərbi əməliyyatların başlanmasına hazır olmalıdır. Şübhəsiz, müharibə meydanında şəxsi heyətin tibbi təminatı ilk növbədə bu sahədə xidmət edən tibb zabitlərinin vətənpərvərliyindən asılıdır. Hər bir döyüşçünün həyatının qorunması üçün əlimizdən gələni etməliyik. Mənə elə gəlir ki, bölgələrdə yerləşən əlahiddə tibb taborlarının maddi-texniki təminatı daha da gücləndirilməli, sanitar-helikopter və ambulanslar ən müasir tibbi avadanlıqlarla təmin edilməlidir.





General-polkovnik Zakir Həsənov tibb zabitlərinin hərbi təbabətin aktual sahələri ilə bağlı suallarını ətraflı cavablandırıb və bir sıra məsələlərə aydınlıq gətirib.

Sonra Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev toplantı iştirakçıları adından göstərilən diqqətə görə ordu rəhbərliyinə minnətdarlığını bildirib və əminliklə qeyd edib ki, peşəkar hərbi həkim kontingenti Silahlı Qüvvələrimizin şəxsi heyəti qarşısında dayanan vəzifə və tapşırıqların yerinə yetirilməsində bundan sonra da öz köməklərini əsirgəməyəcək.

Axırda Azərbaycan Tibb Universiteti hərbi tibb fakültəsinin əsaslı təmir olunmuş qərargah və yataqxanasına baxış keçirən Müdafiə naziri görüləcək işlərlə bağlı tövsiyə və tapşırıqlarını verib. Nazir bir daha bildirib ki, gələcəyin peşəkar tibb zabitlərinin yetişdirilməsinə və onların yetərli təcrübə qazanmasına fikir verilməlidir. "Şəxsi heyətin sağlamlığı üçün cavabdehlik daşıyan tibb zabiti yetərli hərbi biliklərə yiyələnməli, yüksək vətənpərvərlik hisslərinə sahib olmalıdır".

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikasının Müdafiə naziri Bəhreyn Silahlı Qüvvələrinin Baş Komandanını qəbul edib



Dekabrın 13-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Bəhreyn Müdafiə Qüvvələrinin Baş Komandanı feldmarşal Şeyx Xəlifə bin Əhməd əl-Xəlifəni qəbul edib.

Görüşdə regional hərbi-siyasi vəziyyət, ikitərəfli hərbi əməkdaşlıq və müxtəlif məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***13 dekabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 28 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Mosesqex və Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərində, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Mərzili, Novruzlu, Sarıcalı, Kəngərli, Şuraabad, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Göygöl, Xocavənd və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***14 dekabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 53 dəfə pozulub.

Erməni silahlı bölmələri Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Mərzili, Qaraqaşlı, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***15 dekabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 55 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Çinari, Mosesqex və Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq və Əlibəyli kəndlərində, İcevan rayonunun Berkaber və Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Yusifcanlı, Cəvahirli, Şıxlar, Mərzili, Sarıcalı, Kəngərli, Şuraabad, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Veysəlli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Füzuli və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***16 dekabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 44 dəfə pozulub.

Erməni silahlı bölmələri Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Mərzili, Qaraqaşlı, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

*Ön xətdən reportaj*

# Mətin müdafiəçilər

***Qazax bölgəsinin igid oğulları həmişə torpaqlarımızı düşməndən mərdliklə qoruyublar. Heç vaxt yadelli işğalçılar qarşısında baş əyməyiblər. Torpağın, yurdun qədri bilinən bu bölgədə ata-babalarımızın qəhrəmanlıq ənənələri bu gün də davam etdirilir. Vətənimiz üzərinə düşmən hücumları başlayandan qazaxlı gənclər ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmışlar. Onlardan bəziləri Vətən uğrunda şəhidlik zirvəsinə ucalmış, bir çoxları isə yüksək fəxri adlara, orden və medallara layiq görülmüşlər.***

"N" hərbi hissəsinin zabiti Elmar Zeynalabdinov söhbətimizdə bildirdi ki, hərbi hissədə xidmətə başlayan gənc əsgərlərə ilk növbədə qədim diyarın tarixi, keçmişi və bu günü haqqında ətraflı məlumat verilir. "Hər bir əsgər qoruduğu ərazi haqqında kifayət qədər məlumata malik olmalıdır. Xidmət etdiyimiz bu yerlər qədim tariximizi, mədəniyyətimizi, milli adət-ənənələrimizi özündə yaşadan ərazidir. Şəxsi heyətin hər bir üzvü qürur duyur ki, bəşər mədəniyyətinə dahilər, mütəfəkkirlər, hərbi sərkərdələr bəxş etmiş bir diyarın müdafiəçisidir. Buna görə də hər birimiz çalışırıq ki, Vətənə sədaqətlə xidmət etməklə, qəhrəmanlıq ənənələrini layiqincə davam etdirək".



Təcrübəli zabitə görə, son vaxtlar düşmən tərəfindən atəşkəs pozulsa da, onların layiqli cavabı verilir. Əsgərlərimiz torpaqlarımızın keşiyində ayıq-sayıq dayanıblar. Gündəlik təlim və məşğələlərdə ordu həyatının əsası sayılan döyüş hazırlığına xüsusi önəm verilir. Müdafiə Nazirliyinin təsdiq etdiyi plana uyğun olaraq, hazırlıq məşğələləri yüksək səviyyədə keçirilir. Əsas məqsədimiz şəxsi heyətin döyüş qabiliyyətini daha da gücləndirməkdir.

Sonra ön xətdə xidmət edən əsgərlərlə görüşə yollanırıq. Hər tərəfdə qızıl payızın şəfəqləri sayrışır. Ana təbiət öz donunu dəyişir. Dağların zirvəsi dumanlı görünsə də, hava açıq-aydındır. Bir azdan gənc Vətən müdafiəçilərinin xidmət etdikləri mövqelərə çatırıq. Zabit Xəyal Behbudov məlumat verir ki, ötən gün heç bir hadisə qeydə alınmayıb, şəxsi heyət döyüş növbətçiliyini müvəffəqiyyətlə yerinə yetirir.

Hərbi hissədə hamının vətənpərvər zabit kimi tanıdığı bu hərbçi ulu öndər Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinin yetirməsidir. Hərbi təhsildən sonra xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissədə davam etdirib. Bu gün də cəbhə xəttində xidmət edən zabit Xəyal Behbudov ona tapşırılan vəzifənin öhdəsindən bacarıqla gəlir. Bacarıqlı zabitin şəxsi heyətlə keçirdiyi döyüş, mənəvi-psixoloji hazırlıq məşğələləri əsgərlərin döyüş qabiliyyətinin təkmilləşdirilməsinə xidmət edir.

Ön xətdəki bölmədə diqqətimizi çəkən məqamlardan biri Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunmuş guşənin önündə dayanan əsgərlər oldu. Onlar qəhrəmanın davamçıları kimi həmişə döyüşə hazır olduqlarını bildirdilər. Əsgər Sərdar Əliyev dedi:



- Bu gün hər birimiz Vətən uğrunda məhz Milli Qəhrəman Mübariz İbrahimov kimi döyüşməyə qadirik. Son vaxtlar ordu rəhbərliyinin cəbhə bölgələrinə səfərləri, əsgər və zabitlərlə keçirdiyi görüşlər bizi qələbəyə ruhlandırır.

Gizir Samir Xəlilov bir neçə ildir ki, ordu sıralarındadır. Vətənə xidməti həyatının mənası hesab edən hərbçi ürəkdən ordu həyatına bağlanıb. Vətənpərvər gizir hərbçi peşəsini təsadüfən seçməyib. Ata-baba yurduna düşmən hücumları başlayanda könüllü olaraq Vətənin müdafiəçiləri sırasına qoşulub. Həyatda doğru yol seçən gizir Samir Xəlilov həmişə Vətən andına sadiq qalacağını bildirir. Qeyd edək ki, fədakar gizirin xidmətləri komandanlıq tərəfindən qiymətləndirilib. Fəxri fərmanlara, qiymətli hədiyyələrə, medallara layiq görülüb.

Döyüş növbətçiliyi çəkən əsgər Təbriz Əlizadə isə bildirdi ki, düşmənin bütün hərəkətlərini dəqiqliklə izləyir, hər hansı bir dəyişiklik baş verərsə, dərhal tədbir görülür.

- Düşmən artıq hiss edib ki, Azərbaycan Ordusunun gücü, qüdrəti gündən-günə artır, - deyə əsgər qeyd etdi. - Yaxşı bilirlər ki, Azərbaycan əsgəri hələ son sözünü deməyib. Biz tezliklə işğalda olan torpaqlarımızı düşməndən azad edib, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik.

Gənc döyüşçülər Amin Bağırov, Həmid Əliyev və başqaları da bu fikirlə həmrəy olduqlarını bildirdilər.

Ön xətdə olduğumuz müddətdə bir daha hiss etdik ki, Vətən müdafiəçiləri hərbi anda sədaqətli olduqlarını nümunəvi xidmətləri ilə təsdiqləyiblər.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Təlimdə uğur, döyüşdə qələbə



"Məğlub olmaqdanmı utanırsan? Onda qalib gəl". Bu sözlər polyak şairi Stanislav Yeji Letsə məxsusdur. Əlimin altındakı kitabda onun duyumlu, insanı düşündürüb qəlbini coşduran fikirləri çoxdur. Amma yuxarıda yazdığım sətirlər məni özünə çəkdiyindən, yazıma da elə bu sözlərlə başlamaq istədim. Doğrudan da, müəllif bu sözləri yerində deyib. Əgər məğlubiyyətdən utanmaq istəmirsənsə, xalqın arasına alnıaçıq, başıuca çıxmaq istəyirsənsə, onda buyur, döyüş, vuruş, igidlik göstər və düşmənə qalib gəl. Qoy sənin qəhrəmanlığın, igidliyin gələcək nəsillərə bir nümunə, örnək olsun. Səni həmişə hörmətlə xatırlasınlar, ləyaqətlə ansınlar.

Bəs düşmənə qalib gəlməyin sirri nədədir? Təbiidir ki, mütəxəssislər, təcrübəli zabitlər heç də çox fikirləşmədən asanlıqla bu suala cavab verə bilərlər. Deyərlər ki, yağı üzərində qələbə qazanmağın sirri əsgərin döyüş və mənəvi-psixoloji hazırlığının yüksək olmasındadır. Bəs şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə olmasına necə nail olmalı? Əsgərin ürəyinə, qəlbinə necə yol tapmalı? Heç kimə sirr deyil ki, bunun da yolu məşğələ və təlimlərdən keçir. Tabeliyində olan şəxsi heyətin döyüş hazırlığının yüksək olması üçün zabitlər müntəzəm olaraq təlim-məşqlər keçir, mərhələ-mərhələ hərbi bilikləri və döyüş vərdişlərini əsgərlərə aşılayırlar.

Bu günlərdə "N" hərbi hissəsində artilleriyaçıların məşğələsini yaxından izləmək imkanı qazandım. Zabit Vüqar Aydınovla topçuların yanına gedirik. Yol boyu söhbət edən zabit bildirdi ki, bu günlərdə irimiqyaslı təlimlərdə iştirak edən artilleriyaçılarımız böyük uğur qazandılar.

Məşğələ keçən topçuların səsi uzaqdan eşidilirdi. Heyət nəfərləri cəld və çevik hərəkətlərlə komandirin əmrlərini yerinə yetirərək artilleriya qurğusunu "döyüş" və "səfər" vəziyyətinə gətirirdilər. Əsgərlər çalışırdılar ki, tapşırığı yerinə yetirərkən səhvə yol verməsinlər. Onların döyüş hazırlığına baxanda qürur duyuram. İnanıram ki, heyət nəfərləri müharibə meydanlarında həmişə düşmənləri məğlub edəcəklər.

- Bacarıqlı və təcrübəli topçularımızla fəxr edirik. Çünki son təlimlər zamanı onlar hədəfləri dəqiq vuraraq müsbət nəticə göstərdilər, - deyə zabit Zinhar Bayramov qeyd etdi. - Təlimlər bir daha göstərdi ki, indiyə qədər keçirilən dərs və məşğələlərdə əsgərlər hərbi bilik və döyüş vərdişlərini mükəmməl mənimsəyiblər. Amma qazanılan uğurlar bizi arxayınlaşdıra bilməz. Əksinə, gördüyünüz kimi, təlimdən hərbi hissəyə yüksək ovqatla dönən şəxsi heyət məşğələlərdə daha da fəal iştirak edir. Böyük həvəslə hərbi bilikləri mənimsəyirlər. Əsgərlərimiz bir daha şahidi oldular ki, əldə olunan bilik və döyüş vərdişləri təlimin hər dəqiqəsində zabitin, əsgərin karına gəlir, uğur qazanmağı təmin edir.

Zabit Zinhar Bayramov söhbətinin davamında nümunəvi xidməti ilə seçilən əsgərlərdən də söz açdı. Bildirdi ki, bacarıqlı əsgərlərdən top komandiri, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu çavuş İlkin Nağıyev, heyət nəfərlərindən Orxan Mürsəlov, Tosif Quluyev, Əli Alışov, Allahyar Məmmədov və Cavid Əmrahlı həm gündəlik xidmətlərində, həm də təlimlərdə müsbət nəticə göstərirlər.

- Orduya, hərbi xidmətə həvəslə gəlmişəm, - deyə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu çavuş İlkin Nağıyev söhbətə qoşuldu. - 2012-ci ildən xidmətdəyəm. Təcrübəmi və döyüş vərdişlərimi xidmətdə ilk addımlarını atan gənc əsgərlərə öyrətməkdən zövq alıram. Çalışıram ki, sabahımızın döyüşçüləri daha hazırlıqlı və peşəkar olsunlar. Son təlimlər bizim üçün çox uğurlu və yaddaqalan oldu. Belə təlimlərdə bir neçə dəfə iştirak etmişdim. Əvvəlcədən uğur qazanacağımıza əmin idim. Təlim zamanı üzərimizə düşən bütün tapşırıqları peşəkarlıqla yerinə yetirdik. Hədəflər vaxtında və dəqiq vuruldu. Buna görə də adımız mükafat alanların siyahısına düşdü. Mən buna çox sevindim. Həm də ona görə çox sevindim ki, mükafatı - qol saatını mənə hörmətli Müdafiə naziri general-polkovnik Zakir Həsənov özü şəxsən təqdim etdi. O günü, o anı heç vaxt unutmayacağam. Bu, bizim zəhmətimizə verilən ən dəyərli mükafat idi. Xidmətimizi vaxtında və yüksək qiymətləndirdiyinə görə Müdafiə nazirinə dərin minnətdarlığımı bildirirəm. İndi xidmətimi daha həvəslə davam etdirirəm.

Heyət nəfərlərinin üzgözündən sevinc və fərəh yağırdı. Həvəslə məşğələ keçirdilər. Təbiidir ki, belə yüksək ovqatla dərs və məşğələlərdə iştirak edən heyət nəfərləri hər təlimdə uğur, döyüşlərdə isə qələbə qazanacaqlar.





**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**




## Azərbaycanın Milli Qəhrəmanı anılıb

***Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Elşad Əhədovun anım mərasimi keçirilib.***

Mərasimdə çıxış edənlər Milli Qəhrəmanın həyatından, liseydəki təhsil illərindən və keçdiyi şərəfli döyüş yolundan bəhs ediblər. Sonra kursantlar bədii hissə ilə çıxış ediblər.

Tədbirin sonunda Milli Qəhrəmanın oğlu Elşən Əhədov mərasimin təşkili üçün Müdafiə Nazirliyinin rəhbərliyinə və liseyin komandanlığına minnətdarlığını bildirib, kursantlara seçdikləri şərəfli yolda uğurlar arzulayıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Dekabrın 15-dən 17-dək Marmaris şəhərində (Türkiyə) dənizdə təhlükəsizlik əməliyyatları zamanı yerli mədəniyyətlərdən xəbərdar olma kursu; dekabrın 15-dən 18-dək isə Ankara şəhərində (Türkiyə) 7-ci Azərbaycan-Türkiyə yüksək səviyyəli hərbi dialoq iclası; dekabrın 16-dan 18-dək Norfolk şəhərində (ABŞ) "Transformasiya Komandanlarının konfransı və Tərəfdaşların Transformasiya Komandanlarının dəyirmi masa" tədbiri; dekabrın 16-dan 17-dək isə Ankara şəhərində (Türkiyə) Türkiyə Silahlı Qüvvələri Sülh Naminə Tərəfdaşlıq Təlim Mərkəzi komandanlığının ziyarəti və Bonn şəhərində (Almaniya) hərbi hüquq üzrə ekspert danışıqları keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Düşmən həmişə nəzarətdədir

***Ordunun mühüm qoşun sahələrindən biri də Hərbi Hava Qüvvələridir. Bu qoşun xidmətinə müasir ordularda geniş yer ayrılır. Operativlik, düşmənin hərbi obyektlərini tez bir zamanda məhv etmək və s. kimi tapşırıqları digər qoşun növləri ilə müqayisədə Hərbi Hava Qüvvələri tez və yüksək səviyyədə yerinə yetirmək gücünə malikdir. Məhz bu səbəbdən də bu qoşun növünə müasir ordularda üstünlük verilir. Söz yox ki, düşmənin də hərbi hava qüvvələri var. Amma düşmənlə təmas xəttində mövqeyimizin hava hücumundan müdafiəsi lazımınca təşkil olunub. Bu yöndə daim mümkün tədbirlərin həyata keçirilməsi də heç kimə sirr deyil.***

Səmamızı hər an ayıq-sayıq qoruyan döyüşçülərimizin xidməti ilə yaxından tanış olmaq məqsədilə cəbhə bölgəsində yerləşən bölmələrdən birində oldum. Zabit İsmixan Əliyevə gəlişimin məqsədini bildirəndə tərəddüd etmədi. Heç fikirləşmədən tabeliyində olan təcrübəli zabiti şəxsi keyfiyyətləri və idarəçilik bacarığı ilə fərqlənən kapitan Məhəmməd Əliyevin adını çəkdi. O, daha sonra dedi:

- Bu zabit mükəmməl hərbi biliyə malik olmaqla bərabər tutduğu vəzifənin öhdəsindən bacarıqla gəlir. Onun komandiri olduğu bölmə həmişə döyüş və ictimai-siyasi hazırlıq üzrə keçirilən təlimlərdə fərqlənib.

Zabit İ.Əliyev bildirdi ki, kapitan M.Əliyevin tabeliyində olan heyətlər döyüş-atışlı təlim zamanı yiyələndikləri nəzəri bilikləri, praktik çalışmaları daim yüksək səviyyədə nümayiş etdirə bilirlər.

Elə komandirin başlıca vəzifəsi tabeliyində olanlara mükəmməl biliklər aşılamaqdır. Hər bir əsgərin fərdi hazırlığı onun göstəricisidir ki, hazırlıq dövrü ərzində o, hərbi bilikləri yetərincə mənimsəyib. Kapitanın tabeliyindəki əsgərlərin döyüşə hazırlığı ilə tanışlıq üçün onların məşğələ yerinə getmək qərarına gəldik. Zabit İ.Əliyevlə vaxt itirmədən heyətlərin təlim yerinə gəldik. Burada bölmələr heyətlərə bölünərək komandirlərin başçılığı altında məşğələ keçirdilər. Kapitan M.Əliyev heyət komandirlərinin dərs yerində tez-tez təlim noqtələrinə baş çəkir, əsgərlərin mövzunu necə mənimsədiyi barədə məlumat öyrənirdi. Şübhəsiz, bölmə komandirinin xidmətə səy göstərməsi hər bir əsgərdə də məsuliyyət hissini artırır.



Top komandiri əsgər Aslan Aslanov yarım ildən artıqdır ki, müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Əsgər deyir ki, yiyələndiyi ixtisas üzrə hazırlıq kursunu bitirdikdən sonra heyətə komandir təyin olunub. İlk gündən nümunəvi xidmət etməyi qarşısına məqsəd qoyan kiçik komandir bildirib ki, komandiri olduğu heyətlə həvalə edilmiş hava məkanını ayıq-sayıq qoruya bilir. Həmin əraziyə düşmənin istənilən hava hədəfi daxil olarsa, heyət onu vaxtında aşkar edib məhv etmək imkanlarına malikdir.

Bir neçə dəfə atış təlimlərində iştirak edən top komandiri hər zaman tapşırıqların öhdəsindən bacarıqla gəldiyini vurğuladı. Onun tabeliyində olan Müseyib Fərzalıyev sərrast atıcı olduğunu dəfələrlə təsdiq edib. Düşmənin hava və yerüstü hədəfləri vaxtında aşkar etmək bacarığı olan əsgər, bir qayda olaraq, döyüş tapşırıqlarını məsuliyyətlə icra edir.

Heyət üzvlərindən Fərid Quliyev, Amil Baxışov, Həmid Səmədzadə, Rəvan Muradov, Vəli Məmmədov döyüş vəzifələrini mükəmməl bilməklə yuxarı komandirlərin etimadını doğruldurlar. Hər biri ölkəmizin müxtəlif bölgəsini təmsil edən əsgərlər bir məqsədə, bir amala xidmət edirlər: torpaqlarımızın 20 faizini işğal etmiş erməni quldurlarına qarşı hər an döyüşə hazır olmaq. Onlar bunun üçün lazım olan hərbi biliklərə və vərdişlərə mükəmməl şəkildə yiyələndiklərini qeyd etdilər.

Səmamızın mətin müdafiəçiləri ilə daha bir görüş məndə xoş ovqat yaratdı. Onların hərbi xidmətə göstərdiyi maraq, komandirlərin verdiyi əmr və tapşırıqların vaxtında, dəqiq yerinə yetirilməsi bir daha ordumuzda hava hücumundan müdafiə xidmətinin yüksək səviyyədə olduğuna əminliyimi artırdı.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# Xəbərlər: hadisələr, faktlar

### BMT: Ukraynanın şərqindəki münaqişə nəticəsində 4634 nəfər həlak olub



Ukraynanın şərqində bu ilin aprelindən etibarən başlayan hərbi münaqişə zamanı ən azı 4634 nəfər həlak olub, 10 342 nəfər yaralanıb, 568 min nəfər isə evlərini tərk etməyə məcbur olub.

AzərTAc Vesti.ru saytına istinadla xəbər verir ki, bu barədə məlumat dekabrın 12-də BMT-nin humanitar məsələlərə dair koordinasiya idarəsi tərəfindən dərc edilmiş məruzədə verilir. Məruzədə dekabrın 9-da imzalanan və həftə ərzində davam edən son atəşkəsdən indiyədək BMT-yə dinc sakinlərin həlak olması haqqında faktların daxil olmadığı da qeyd olunur.

### Sualtı kəşfiyyat üçün nəzərdə tutulan robot-balığın sınağı keçirilib



ABŞ hərbi dəniz qüvvələrinin mühəndisləri sualtı kəşfiyyat üçün nəzərdə tutulan robot-balığın sınağını keçiriblər. Layihənin dəyərinin 1 milyon dollar olduğu bildirilir.

AzərTAc "The Washington Post" qəzetinə istinadla xəbər verir ki, uzunluğu 1,5 metr, çəkisi isə 45 kiloqram olan qurğu zahirən balığa bənzəyir, onun hərəkətini tam olaraq yamsılayır və səssiz üzə bilir. Nə pər, nə də reaktiv motorla təchiz edilməyən robot-balıq üzərkən yalnız quyruğunun hərəkətindən istifadə edir. Onu həm məsafədən idarə etmək, həm də avtonom rejimə keçirmək olar.

Qəzet qurğunun artıq gələn ildən etibarən ölkənin hərbi dəniz qüvvələrinin sərəncamına verilə biləcəyini yazır.

### Gələn il ABŞ-ın hərbi xərcləri yarım trilyon dollardan çox olacaq



ABŞ Konqresinin senatı dekabrın 12-də 2015-ci maliyyə ili üçün təxminən 577 milyard dollarlıq hərbi xərcləri təsdiq edib.

AzərTAc TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bundan sonra sənəd imzalanmaq üçün Amerika Prezidenti Barak Obamaya göndəriləcək.

Hərbi xərclərin 514 milyard dolları Pentaqona və nüvə silahının effektivliyinə məsul olan energetika nazirliyinin hərbi proqramına, 63,7 milyard dolları isə Əfqanıstan, İraq və Suriyadakı hərbi əməliyyatlara ayrılacaq.

Hər iki palatadan keçən qanun layihəsi ABŞ Administrasiyasının İŞİD-ə qarşı hərbi əməliyyatlar keçirmək istəyini də ehtiva edir. Eyni zamanda sənəddə Suriya müxalifətinə amerikalı hərbçilər tərəfindən təlim keçirilməsi və onlara silah yardımı göstərilməsi mandatının uzadılması da nəzərdə tutulur.

### Ebola virusundan ölənlərin sayı 6 mini ötüb



Dünya Səhiyyə Təşkilatı (DST) Qərbi Afrika ölkələrində ebola virusu qurbanlarının sayının 6388 nəfərə çatdığı barədə məlumat yayıb.

AzərTAc “TRT haber” telekanalına istinadla xəbər verir ki, təşkilatın rəsmi məlumatına görə, virusa yoluxanların da sayı artaraq 17942 nəfər təşkil edib. Onların böyük əksəriyyəti Liberiya, Qana və Serra-Leone vətəndaşlarıdır.

Məlumatda, həmçinin ölüm faktlarının ən çox Serra-Leonedə qeydə alındığı, Qanada xəstəliyin artım tempinin yüksəldiyi, Liberiyada isə nisbətən zəiflədiyi bildirilir.

### Ermənistanda fəhlələr 18 aydır əmək haqlarını ala bilmirlər



Ermənistan rəhbərliyinin ölkənin inkişafı barədə qaldırdığı səs-küy mənasız sözlərdən başqa bir şey deyil. Ölkə iqtisadiyyatı getdikcə tənəzzülə uğrayır. Hətta iş o yerə çatıb ki, xəzinə boşaldığından fəhlələrin pulları vaxtında ödənilmir.

Parisdə erməni lobbisinin vəsaiti hesabına gündəlik nəşr olunan "Ermənistan xəbərləri" jurnalının 11 dekabr tarixli nömrəsində dərc edilən məqalədə Yerevandakı kauçuk zavodunun əmək haqlarını ala bilməyən fəhlələrinin ölkə prezidentinin iqamətgahı qarşısında nümayiş keçirməsindən bəhs olunur.

### BMT Əfqanıstanda "Qəti dəstək" missiyası təsis edilməsi təklifini dəstəkləyib



BMT Təhlükəsizlik Şurası 2014-cü ildən sonrakı dövrdə Əfqanıstanda "Qəti dəstək" adlı missiya təsis edilməsi barədə NATO ilə Əfqanıstan arasında razılaşmanı dəstəkləyib. AzərTAc BMT-nin Xəbərlər Mərkəzinə istinadla bildirir ki, bu missiya Əfqanıstan milli müdafiə və təhlükəsizlik qüvvələrinin təlimatlandırılması və onlara məsləhətlər verilməsi ilə məşğul olacaq, həmin qüvvələrə yardım göstərəcək.

BMT Təhlükəsizlik Şurasının üzvləri ümid edirlər ki, "Qəti dəstək" missiyasının rəhbərliyi Əfqanıstan hökuməti ilə qarşılıqlı fəaliyyət göstərəcək və müvafiq hallarda öz fəaliyyətini BMT-nin bu ölkədəki missiyası ilə əlaqələndirəcəkdir.

### Belçikada uzunluğu 300 kilometrə çatan avtomobil tıxacı qeydə alınıb



Dekabrın 11-də Belçikada 2014-cü ilin rekord avtomobil tıxacı qeydə alınıb. Səhər tezdən paytaxt Brüsseli Gent və Limburq şəhərləri ilə birləşdirən magistralda yaranmağa başlayan tıxacın uzunluğu saat yeddi radələrində 300 kilometrə çatıb.

AzərTAc İTAR-TASS informasiya agentliyinə istinadla xəbər verir ki, tıxaca əsas səbəb kimi dəmiryolçuların tətili göstərilir. Flamand yol hərəkəti mərkəzinin nümayəndəsi Hadjo Bekman paytaxtı Antverpen, Gent, Ostende, Lyej, Mons və Şarlerua şəhərləri ilə bağlayan qatarların hərəkətinin dayandırılması nəticəsində belçikalıların şəxsi avtomobillərindən istifadə etməyə məcbur olduqlarını və nəticədə magistrallarda xaos yarandığını bildirib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Ordu və cəmiyyət

# Əsl dostluq nümunəsi

***Dostluq kəlməsinin yozumu çoxdu. Bu kəlmənin qarşılıqlı ehtiram, təmənnasızlıq, qəlb, könül yaxınlığı (bəlkə də eyniliyi!) çalarları da var. "Dostunu göstər, kim olduğunu deyim", - ifadəsi bu qəbil yozumları nə qədər məntiqli ümumiləşdirir!..***

Atam Böyük Vətən müharibəsi iştirakçısıydı. Alman-faşist işğalçılarına qarşı Krım partizanları sırasında da döyüşmüşdü. Neçə təltifi vardı.

1980-ci ildə bir məktub almışdıq. Göyçayın Bığır kəndindən. Krımda atamın komandiri olmuş Sahib Hacıyevdən. 34 ildən sonra ilk təmas! Hələlik məktub vasitəsilə! Atam necə sevinmişdi, İlahi!

O gecə atam eşitdiyim, eşitmədiyim xatirələrini bir də çözələdi. Kövrələ-kövrələ. Ağrılı günlər öz yerində, ötənlərin unudulmazlığı məni varımdan yox eləmişdi. Atamın od-alov içində keçən gəncliyinə ağrısam da, onun döyüş yolundan, eyni səngərdə keçən ayların, illərin unudulmazlığından, ağrı-acıların, sıxıntıların məngənəsindən sıyrılıb çıxanların dostluğundan qürurlanmışdım...

Atamla Sahib əminin görüşünü təsvir eləməyə gücüm çatmır; qoşa qolları bir-birinin kürəyində çarpazlaşmışdı...

Hərbi xidmət illərində (müharibə də hərbi xidmətdir!) yaranan dostluq yaşarı dostluqdu. Bu dostluq mənəviyyatın bir parçasına çevrildiyindən son nəfəsdən sonra da unudulmayan, yaşadılan dostluqdu. Zaman-zaman belə olub. Belədir. Belə də olacaq. Silahlı Qüvvələrimizin hərbi qulluqçularının, bu sıradan əsgərlərinin dünya duyumu belə münasibəti nə qədər gözəl yaşadır!..

Əlahiddə Ümumqoşun Ordusunda (Naxçıvan) dostluq münasibətlərinin yaranması, dərinləşməsi, milli mentalitetin tərkib hissəsinə çevrilməsi adamın ürəyini dağa döndərir: əslən Naxçıvandan olan əsgər qısamüddətli məzuniyyətə gedəndə başqa rayonlardan olan bir əsgəri də özü ilə evlərinə aparır. Qonaq kimi. Bu, qardaşlaşma, dostlaşma üçün ehtiramla əhatələnmənin təcəssümüdü.



Beyləqanda eşitdiyim bir hadisə düşür yadıma. Samir döyüş növbəsindən təzəcə qayıdıbmış. İlqarın duruşundan, bu duruşdan gümanladıqlarından ürəyinə daman damır; sən demə, İlqar döyüş növbəsi ərəfəsində xəstələnibmiş. Qürurlu əsgər olduğundan bu haqda heç kimə heç nə demirmiş. Samir komandirinə müraciət edir:

- İlqarın əvəzinə döyüş növbəsinə getməyimə icazə verin...

Tovuzda ezamiyyətdə olanda kövrək bir hadisə eşitdim. Səmədin qədərsiz narahatlığı Vasifin diqqətindən yayınmır. Nə olduğunu soruşur. Düz-əməlli cavab ala bilmir. Təkid edir. Əl çəkmir. Məlum olur ki, Səmədin atası Bakıda əməliyyat olunub, klinikadadır. O, atasının yanına getmək istəyir, hərbi xidmətdə olması buna imkan vermir...

Səhərisi Səmədi telefona çağırırlar. Komandirin əmriylə. Səməd atası ilə danışır. Sonra biliblər ki, Vasifin atası xəstəni yoluxmağa gedib. Bu danışığı da o təşkil eləyib. Oğlunun dostuna, dostluğa münasibətinə ehtiram kimi...

Oğluna şəhid olmuş dostunun adını qoyanlar da çoxdu, şəhid olmuş dostunun balasının nişanının, toyunun cəfasını çəkənlər də.

Silahlı Qüvvələrimizdə aparılan islahatlar öz təsirini göstərməkdədi. Həqiqətən, ordumuz Cənubi Qafqazda ən güclü ordudu. Onun döyüş qabiliyyəti avqust hadisələrində də öz təsdiqini tapdı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təmas xətti boyunca əsgər və zabitlərimizlə görüşməsi, söhbət eləməsi, onlara dəyərli məsləhətlər verməsi ordumuzda mənəvi-psixoloji hazırlığın da səviyyəsini əhəmiyyətli dərəcədə yüksəldib. Əsgərlərimiz Vətəni sevdikləri səviyyədə, dostluq münasibətlərini də dəyərləndirir, dostluğu ordu həyatının vacib hissəsi bilirlər.

Azərbaycan əsgəri torpaqlarımızı da qoruyur, milli mentalitetimizin də cəfakeşidi; dostuna, dostluğa sədaqətli əsgərin Vətəni həqiqətən göz bəbəyi kimi qoruyacağına inanmamaq insafsızlıqdı.

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# Qələbəyə səsləyən mahnı

***Ordu həyatında vətənpərvərlik mahnıları ecazkar qüvvəyə malikdir. Hər kəsi igidlik göstərməyə ruhlandıran bu mahnılar döyüşçünün qəlbində qələbəyə inam yaradır. Bir döyüşçü olaraq bu qüvvənin ecazkarlığını erməni işğalçılarına qarşı iştirak etdiyim hərbi əməliyyatlarda hiss etmişəm.***




İlk milli hərbi hissəmizin veteranları döyüşə səsləyən yeni bir mahnının yaradılması üçün təşəbbüs irəli sürmüşdülər və qısa zamanda onların arzuları gerçəkliyə dönüb. Yenicə doğulan musiqi əsəri "Müharibə" adlanır. İlk motoatıcı briqadamızın apardığı uğurlu döyüşlərin şərəfinə bəstələnsə də, bu mahnının bədii obrazı Azərbaycan əsgəridir və şahanə yurd sevgisinin ideya daşıyıcısı kimi Vətən oğullarımızı düşmən üzərində qəti qələbəyə səsləyir.

Bu günlərdə Beynəlxalq Mətbuat Mərkəzində keçirilən təqdimat mərasiminə dəvət olunmuş müharibə veteranları, incəsənət xadimləri, yaradıcı insanlar bu mahnının ilk dəfə səslənməsindən doğan emosional əhval-ruhiyyəyə bürünmüşdülər. Mahnıya həsr edilmiş videoklipin qürur doğuran kadrları, inkişaf etmiş ordumuzun döyüş qüdrətinin parlaq təzahürləri hamıda qeyri-ixtiyari olaraq döyüşkən ruh yaratmışdı.

Mahnının sözlərinin müəllifi - Qarabağ döyüşlərində qəhrəmanlıq nümunələri göstərmiş ilk briqadanın sabiq komandiri, sovet dönəmində Əfqanıstan müharibəsinin ağrı-acısını çəkmiş, ehtiyatda olan polkovnik Əzizağa Qənizadədir. Sözün açığı, müharibə həyatını əməli surətdə yaşamış bu peşəkar hərbçinin birdən-birə yaradıcı qələm sahibi rolunda cıxış etməsi onu yaxından tanımayanlar üçün təəccüb doğurmuşdu.

Mahnının sözləri düzülüb-qoşulanda mən redaktor missiyasını yerinə yetirmişəm. Bəzi misraların bədii yükünü artırmağa cəhd edərkən Ə.Qənizadə mənimlə razılaşmır və təkidlə söyləyirdi ki, keşməkeşli səngər rüzigarını əks etdirən, müharibə ab-havasını canlandıran, yurd sevgisini uca və izdihamlı səslə ifadə edən fikirlər sadə sözlərdən ibarət olmalıdır. Müəyyən mənada bir peşəkar hərbçi, təcrübəli döyüşçü kimi onun mühakimələri ilə razılaşmalı olurdum. Ə.Qənizadənin təkidli müəllif mövqeyini ona görə dəstəkləmək qərarına gəldim ki, mahnı süjetinin ana xəttini Vətən sevgisi, əsgər qəlbinin çırpıntıları təşkil edir.

"Müharibə" mahnısını istedadlı bəstəkarımız Elçin İmanov bəstələyib. O, öz çıxışında səmimi olaraq etiraf edib ki, Azərbaycan Ordusunda xidmət etməsə də, mahnının bəstələnməsi zamanı yüksək qürur hissi keçirib.

Yeni döyüş ruhlu mahnı ilk dəfə gənc müğənni Rəşad İsmayılovun ifasında səslənib. Döyüşçünün daxili həyəcanının ən incə çalarlarını öz məlahətli səsi ilə dilləndirən müğənni, demək olar ki, öz istəyinə nail ola bilib. Müğənni vurğulayıb ki, bu mahnının ifasını öz yaradıcılığında önəmli addım sayır. O, həmçinin, inam hissi ilə bildirib ki, Ali Baş Komandanımızın hücum əmri ilə təkcə öz səsi ilə deyil, həm də silah götürüb döyüşçülərə qoşulacaqdır.

Mahnının ümumi sənətkarlıq xüsusiyyətlərindən danışan xalq artisti Flora Kərimovanın fikirləri hamıda nikbin hisslər doğurub: "Biz qürurlu millətik. Bu mahnı da qürur doğuran mahnıdır. Xalqımızın ruhuna uyğun bəstələnib. İnanıram ki, bu mahnı ordumuzun güclü silahlarından birinə çevriləcəkdir".

**İbrahim MƏSİMOĞLU,**
**hərbi jurnalist**

# Qubadlının cəsur oğlu

(oçerk)

Avqustun 31-i Qubadlı sakinlərinin heç vaxt yadından silinməyəcək. 1992-ci ildə bir neçə səmtdən basqına başlamış ermənilər rayon mərkəzini ələ keçirdilər. Əhalinin var-yoxu yağmalandı, ev-eşiyi dağıdıldı, çoxları əzizlərini itirdi.

Bir gün öncə - avqustun 30-da Laçın və Cəbrayıl rayonları tərəfdən ermənilər hücuma keçmişdilər. Həkəri çayı boyunca əlimizdə olan sonuncu kəndləri saxlaya bilməyən bölmələrimiz geri çəkilib dağ yolları ilə Qubadlının üstündəki Yazı düzünə qalxmağa məcbur oldu. Burada möhkəmlənmək, heç olmasa düşməni Qubadlıya buraxmamaq lazım idi...

Düşmən İşıqlının həndəvərinə çatsa da, ətraf yüksəkliklər hələ əlimizdə idi. Komandanlığın qərarına görə, erməni tanklarının qarşısını saxlamaq üçün bu yollara möhkəm nəzarət lazım idi. Çünki hər yan dağlıq olduğundan düşmən texnikasının hücumu burada əsasən Laçın və Başarat istiqamətindən gözlənilirdi.

T-72-ni İşıqlıda, yolun altındakı evin həyətində saxlamışdılar. "430" erməni texnikasının yolla hərəkətinin qarşısını saxlamalıydı. Tapşırıq belə qoyulmuşdu. İlham həm tuşlayıcı idi, həm də komandir sayılırdı.

Ötürülən çağırışları eşitmək üçün İlham ratsiyanı açıq qoyub tankdan düşmüşdü. Heyətin axtarıldığını görüb, o, tez tanka qalxdı.

- "30" cavab ver, "30"!

"430"-u axtaran bölmə komandiri Valeh Cabbarov idi.

- Erməni tankları Cəbrayıl tərəfdən Xanlığa enirlər, tez gəlin Xanlığa! - bölmə komandiri göstəriş verdi.

Əgər Xanlıq kəndi itirilsəydi, Qubadlı rayonu mühasirəyə düşə bilərdi.

Vəziyyət olduqca çətin idi. İlhamgil tankı işə salıb asfalta çıxdılar, üzüaşağı getməyə başladılar.

Gün günortaya qalxmışdı. Xocik kəndinə çataçatda onlar soldakı təpəliklərdən asfalta enən birləşmənin 95 nömrəli tankını gördülər. Texnikanın qaldırdığı tozduman içində İlham lükdə oturmuş Əlövsət Vəliyevi tanıdı. O da hərbi hissənin ən bacarıqlı tankçılarından idi...

Düşmən torpaqlarımıza diş qıcayanda, Qubadlı zərbəni üzərinə götürən rayonlarımızdan oldu. Həm Ermənistan tərəfindən gələn silahlı dığalara, həm də Dağlıq Qarabağdakı yaraqlı banditlərə rayon əhalisi sinə gərməli olurdu. Onda Qubadlının cəsur oğulları könüllü silaha sarılıb Vətənə sipər oldular. Belə oğullardan biri də cəsur tankçı Əlövsət Vəliyev idi.

Əlövsət bir tank komandiri kimi hazırlıqlı, qorxmaz və cəsarətli bir heyət yaratmışdı. O öz tankı ilə 1992-ci ilin mayında Laçının işğal edildiyi günlərdə rayonun Güləbird, Cicimli, Səfiyan və digər kəndlərinin müdafiəsi zamanı cəsarətlə döyüşə girər, düşmənin canına vəlvələ salardı.

Qubadlının Ermənistanla sərhəd və Qarabağla bitişik ərazilərində gedən döyüşlərdə 95 nömrəli tankın endirdiyi zərbələr dəfələrlə düşmən üçün ağır itkilərlə nəticələnmişdi.

1992-ci ilin sentyabrında Laçın rayonunun düşməndən azad edilməsi uğrunda aparılmış uğurlu əməliyyatı həmin döyüşlərdə iştirak etmiş insanlar yaxşı xatırlayırlar. Həmin döyüşlərdə də Əlövsətin komandiri olduğu tank heyəti fərqlənməyi bacarmışdı. Həmin döyüşlərdə göstərdiyi cəsurluğa görə komandanlıq Əlövsət Vəliyevi leytenant hərbi rütbəsinə təqdim etmişdi.



Əlövsət Vəliyevin cəsur heyəti təkcə doğma rayonun ərazisində gedən döyüşlərdə iştirak etmirdi. Harada köməyə ehtiyac yaranırdı və oraya göndərilirdisə, 95 nömrəli tank orada cəsarətlə döyüşə atılırdı. Dəfələrlə Əlövsət və tankçı yoldaşları Zəngilan, Cəbrayıl rayonlarında vuruşan Vətən oğullarının dadına çatmış, düşmənə sarsıdıcı zərbələr endirmişdi.

Əlövsət ilk günlərdən öz silahdaşları arasında qorxmazlığı və cəsarətinə görə hörmət qazanmışdı. Komandanlıq da ona çox etibar edirdi və inanırdı ki, Vəliyev olan yerdə düşmən üçün asan olmayacaq.

Əlövsəti yaxşı xatırlayanlardan biri də cəsur tankçımız, Qubadlı və Laçın rayonlarında getmiş döyüşlərdə fərqlənmiş tankçı İlham Məmmədovdur. Bu iki cəsur Vətən oğlu Qubadlı rayonunun işğal edildiyi günlərdə bir yerdə düşmənə qarşı vuruşmuşdular. Onda İlham beş güllə yarası alsa da, tankı düşmən əhatəsindən çıxarıb gətirə bilmişdi. Əlövsət isə həmin döyüşlər zamanı həlak olmuşdu. Vaxtilə onun haqqında hazırladığım və Əlövsət Vəliyev haqqında da qeydlərin yer aldığı yazıdan bir parçanı oxucuların diqqətinə təqdim edirəm...

Son döyüşlərdə Cəbrayıl rayonunun Dağtumas kəndi tərəfdən çıxan erməni tankını Əlövsətin heyəti Balasoltanlı kəndinin üstündə məhv eləmişdi. İndi onlar da aldıqları tapşırıqla Xanlığa gedirdilər.

Mərdanlının girəcəyində, elə bil, sərçə pırr eləyib komandir və tuşlayıcı lüklərinin arasından keçdi. Snayper gülləsi idi, İlham SVD-dən atılan güllənin səsini dərhal tanımışdı. Deməli, düşmən soldakı yüksəkliyə gəlib çıxmışdı. İlham cəld özünü kabinəyə saldı.

- "30", haradasan?

Soruşan yenə bölmə komandiri idi.

- Mərdanlıya giririk.

- Əlövsətgili görməmisən? - Valeh Cabbarov təkrar soruşdu.

- Birlikdə Xanlığa gəlirik.

- Gələ bilməyəcəksiniz. Artıq erməni tankları Xanlığa girib. Asfaltla üzüyuxarı sizə tərəf gəlirlər.

- Deyəsən, erməni Mərdanlıya da hücum edib, bizə snayper yuxarıdan güllə atdi.

- Geri qayıdın! Çayı keçib Yazı düzünə qalxın!

Tanklar dalbadal Mollu istiqamətində çayı keçib sağ sahillə üzüyuxarı Mollavurana doğru yönəldi.

Qəflətən iki tankın arasına zirehdeşən mərmi düşüb partladı. Mərdanlının üstünə gəlib çıxmış erməni tankı idi atan. Ləngilik ölümə bərabər olardı. Tank gedə-gedə İlham topu çevirib atəş açdı. Yol kələ-kötür olduğundan mərmi hədəfə dəymədi. Düşmən geri çəkildi.

Kəndin içindən bir BMP-2 də onları mərmi yağışına tutdu. Əlövsətin atəşindən sonra piyadanın döyüş maşını evlərin arasında görünməz oldu. Vəziyyət son dərəcə təhlükəli idi. Qabaqdan İşıqlıdan yuxarıdakı Xəndək kəndindən də tanklar başladı atmağa. Ancaq nə İlhamgil onları görürdülər, nə də ermənilər bizimkiləri. Mərmilər dağın yamacında partlayırdı.

"Ürəklənmiş" piyadanın döyüş maşını bu dəfə Mərdanlının aşağısından, evin tinindən çıxıb yenə atəş açdı. İlham fürsəti qaçırmayıb tez düşmənin zirehli texnikasını nişan aldı. Zirehdeşən mərmi BMP-2-nin altından tutdu, ondan tüstüqarışıq alov qalxdı.

Nə irəliyə, nə də geriyə getmək mümkün idi. Çayın sol sahilindən düşmən açıqlıqdakı tankları sərbəst nişan alıb məhv edə bilərdi. Bəs nə etməli?

Vaxt itirmədən onlar sola - Mollavurana sarı döndülər. Kəndin içi ilə Yazı düzünə tərəf gedib tankları dərədə saxladılar.

Buranı nisbətən təhlükəsiz saymaq olardı. Əgər gözlənilməz hadisə baş verməsə, yalnız gecə dərədən çıxmaq, dağ yolu ilə Yazı düzünə qalxmaq mümkün idi. Hələlik onlara çayın sol sahilini diqqətlə izləmək, hadisələrin inkişafını gözləmək qalırdı.

Əsgərlər Mərdanlıya iki erməni tankının endiyini gördülər, ikisi isə Xanlıq tərəfdən gəldi kəndə. Aşağı kəndlərdə düşmən artıq od vurmuşdu evlərə, ot tayalarına. Əfəndilər, Yusifbəyli, Həmzəli kəndlərindən qalxan tüstü ərşə dirənmişdi.

- Atamgildən çox nigaranam, - Əlövsətin halı tamam dəyişmişdi, özündə deyildi. Onu təkcə tankçıların vəziyyəti narahat etmirdi. Əlövsət Həkəri çayının sol sahilindəki Həmzəli kəndindən idi. Düşmən hücumundan sonra valideynlərinin taleyi bəlli deyildi.

Mollavurandan çayın o üzündəki Xocik kəndinin içi yaxşı görünürdü. Kəndin yuxarısına - Balasoltanlı tərəfə camaat toplaşmışdı. 150-yə qədər adam olardı. Ancaq niyə yığışdıqları, nə etmək istədikləri bəlli deyildi.

- Bəlkə gedib Xocikdəki camaatdan vəziyyəti soruşum? - O, öz-özünə danışırmış kimi dilləndi. - Həmzəlidən, yəqin, xəbərsiz olmazlar.

Dostu, silahdaşı ağır vaxtda tək buraxmaq olardımı? Sonra bir-birinin gözünə necə baxardılar? Əlövsətin yerinə hər biri ola bilərdi. Ona görə İlham çox fikirləşməyib: - Bir yerdə gedək. Həm də, ümümiyyətlə, vəziyyəti öyrənək, - dedi.

Onlar çayı dayaz yerdən keçib başladılar kəndə qalxmağa. Evlərin arasından qarşılarına iki yerli oğlan çıxdı. Onların sözlərinə görə, hələ Xocikə erməni girməmişdi. Bu, İlhamgili bir qədər ürəkləndirdi. Camaatın yığışdığı yerə yaxınlaşanda, tindən hərbi geyimli və silahlı iki nəfər çıxdı. Zahirən bizimkilərdən heç nə ilə fərqlənmirdilər.

- Kənddə erməni yoxdur ki? - İlham onlardan soruşdu.

Naməlum adamlar cavab əvəzinə qəflətən avtomatı qaldırıb atəş açdılar. İlham öncə sağ dizində ağrı hiss elədi. Elə bil, iynə batırdılar qıçına. Yıxılanda ikinci güllə üzündən tutdu. Gözü qarşısında sanki nəsə partladı. O dərhal yəqin etdi ki, sol gözü artıq özünün deyil. İsti qan ağzını doldurub axmağa başladı. Ermənilər yaxınlaşıb bir də atəşə tutdular. İlhamın sol qıçına üç güllə dəydi.

Bu zaman Qubadlı tərəfindən atılmış top mərmisi qəflətən yaxınlığa düşdü və ermənilər oradan uzaqlaşdılar. Bayaqkı oğlanlardan biri dığalar yox olan kimi durub səssizcə qaçdı. O birisinin başına güllə dəydiyindən dərhal keçinmişdi.

Əlövsət isə yıxılmışdı üzü üstə, tərpənmirdi. İlham səsləndisə, ondan cavab çıxmadı. Ağrılar getdikcə bərk incitsə də, durub arxası üstə çevirə bildi onu. Gözlərində həyat sönmüş Əlövsətin köynəyi qan içində idi, düşmən gülləsi sinəsindən dəymişdi...

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Qarabağ" hakim ədalətsizliyi ilə bağlı UEFA-ya rəsmi şikayət ünvanlayıb

Futbol üzrə UEFA Avropa Liqasının qrup mərhələsi çərçivəsində doğma meydanda İtaliyanın "İnter" komandasını qəbul edən Azərbaycan çempionu "Qarabağ"ın oyunun 94-cü dəqiqəsində vurduğu qolun hesaba alınmaması idman ictimaiyyəti tərəfindən ciddi narazılıqla qarşılanır. AzərTAc xəbər verir ki, "Qarabağ"ın vitse-prezidenti Tahir Gözəl UEFA-ya əldə olan bütün sübutlardan ibarət şikayət məktubu ünvanlayıb.

Qeyd edək ki, oyunu idarə edən çexiyalı hakimlər briqadası Riçard Almeydanın vurduğu qolu hesaba almayınca, oyun 0:0 hesabı ilə başa çatıb. Nəticədə 6 xal toplayan "Qarabağ" qrupda 3-cü sırada qərarlaşaraq yarışla vidalaşıb.

## Emil Balayev Ayntraxt ilə müqavilə imzaladı



"Neftçi"nin və milli komandamızın qapıçısı Emil Balayev Almaniyanın "Ayntraxt" klubu ilə müqavilə imzalayıb. Azerisport.az xəbər verir ki, Almaniya təmsilçisinin heyətində baxışdan uğurla keçmiş Emil Balayev adıçəkilən komandanın şərəfini qoruyacaq.

Gənc qapıçı dekabrın 14-də "Neftçi" - "Sumqayıt" oyunundan əvvəl mətbuat nümayəndələrinin Bundesliqa klubuna keçidi ilə bağlı suallarını cavablandırıb. Emil Balayevin keçidi ilə bağlı mətbuat konfransı "Bakcell Arena"nın mətbuat zalında təşkil olunub.

## Azərbaycan qrossmeysteri Pekində yaxşı nəticə göstərib



Pekində Dünya İntellektual Oyunları çərçivəsində şahmat proqramı da start götürüb. AzərTAc xəbər verir ki, kişilər arasında sürətli şahmat üzrə turnirdə reytinq cədvəlinin favoriti Aleksandr Qrişşuk qalib gəlib. Rusiyalı şahmatçı keçirdiyi yeddi görüşdən ağ fiqurlarla oynadığı dördünü heç-heçə başa vurub, qara fiqurlarla oynadığı üç partiyada qalib gəlib. Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov, fransız Maksim Vaşye-Laqrav, çinli Van Xao və erməni Levon Aroyan qalibdən yarım xal geri qalıblar.

## Güləş üzrə Azərbaycan çempionatının ilk gününün qalibləri müəyyənləşib



"Sərhədçi" İdman Olimpiya Mərkəzində böyüklər arasında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı başlayıb.

AzərTAc xəbər verir ki, yarışın ilk günü sərbəst güləşçilər arasında 57, 61, 65, 70, 74 kiloqram çəki dərəcələrində idmançılar mübarizə aparıblar.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Yaşar Əliyev (57 kq), Cəlal Süleymanov (61 kq), Məhəmməd Müslümov (65 kq), Ruslan Dibirhacıyev (70 kq) və Cəbrayıl Həsənov (74 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

## Fariz Məmmədovdan növbəti nokaut



Azərbaycanın və "Qəbələ" İdman Klubunun boksçusu Fariz Məmmədov növbəti qələbəsini qazanıb.

Azerisport.az xəbər verir ki, ölkəmizi peşəkar rinqdə təmsil edən boksçu Ukraynanın paytaxtı Kiyevdə keçirilən "K2 Promotions"un təşkil etdiyi döyüşün iştirakçısı olub.

Məmmədov yarımorta çəki dərəcəsində (66,678 kq) reytinq xarakterli qarşılaşmaya çıxıb. O, Kiyev İdman Sarayında ukraynalı Valentin Kutsla üz-üzə gəlib. 2010-cu ilin peşəkarlar arasında Avropa çempionu olan 34 yaşlı rəqiblə döyüş 8 raunddan ibarət olmalı idi. Lakin Məmmədov qələbəni vaxtından əvvəl qazanmağı bacarıb. Təmsilçimiz artıq ikinci raundda Kutsu nokauta göndərib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Miçman Cavadov İlkin Akif oğluna 2011-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 422
Nüsxə 4570